**UOT 82.09 (092)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.200**

# ƏLİQULU QƏMKÜSARIN ƏDƏBİYYATŞÜNASLIQ FƏALİYYƏTİ

# ALIQULU GAMKUSAR'S ACTIVITY IN LITERARY CRITICISM

**Aygün ORUCOVA***

## XÜLASƏ

XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində mühüm yer tutan mollanəsrəddinçi şair Əliqulu Qəmküsar (1880-1919) qısa ömür payına baxmayaraq, əsl cəsarət və mübarizlik simvolu, nümunəsi kimi yaddaşlarda qalmağı bacarmışdır. Qəmküsarın çoxşaxəli fəaliyyətinin bir sahəsini də onun ədəbiyyat klassiklərinin yaradıcılığından novatorluqla istifadə etməsi, bəzən də müasiri olan C.Məmmədquluzadə, M.Ə.Sabir, Əli Nəzmi, azadlıq hərəkatının mücahidi şair S.Səlmasi haqqındakı araşdırmaları, Azərbaycan oxucularına onun haqqında ilk məlumatı verməsi, müasiri olan naxçıvanlı həm molla, həm də şair olan M.M.Çakər haqqındakı fikirlərinin əks olunduğu əsərləri təşkil edir.

"Şəlalə" ədəd 3" və s. satiralarında Qəmküsarın Azərbaycan ədəbi dilinin saflığının qorunması uğrundakı mübarizəsi də diqqətdən yayınmır. O, Osmanlı mühərriri Xalid Xürrəm Səbribəyzadə və "Şəlalə" jurnalının Azərbaycan dili, ədəbiyyatı və qadınların hüquqlarıyla bağlı mürtəce mövqeyini kəskin tənqid etmişdir. Qəmküsarın dövrünün bir sıra mətbuat orqanlarının tənqidi, ədəbiyyat, şeir və əsl şair haqqındakı mülahizələri də onun ədəbiyyatın, mətbuatın dərinliklərinə, incəliklərinə bələd olduğunu və son dərəcə milli, xəlqi mövqeyə malik bir şəxsiyyət olduğunu təsdiqləyir.

**Açar sözlər:** *ədəbi tənqid, ədəbiyyat nəzəriyyəsi, mətbuat, ədəbi dil, novatorluq.*

## ABSTRACT

Aliqulu Gamkusar (1880-1919), a poet of the "Molla Nasraddin" school who occupies an important place in the history of Azerbaijani culture and literature of the late 19th and early 20th centuries, despite his short life, succeeded in remaining in collective memory as a true symbol and example of courage and struggle. One significant aspect of Gamkusar's multifaceted activity was his innovative use of the creative heritage of literary classics, as well as his research on his contemporaries – Jalil Mammadguluzadeh, M.A.Sabir, Ali Nazmi, and the poet and freedom movement activist S.Salmasi – through which he provided Azerbaijani readers with the first systematic information about them. His works also reflect his views on his contemporary from Nakhchivan, M.M.Chakar, who was both a mullah and a poet. In his satires, including "Shalala" (issue 3), Gamkusar's struggle to preserve the purity of the Azerbaijani literary language is clearly evident. He sharply criticized the Ottoman editor Xalid Xurram Sabribayzadeh and the journal "Shalala" for their reactionary positions on the Azerbaijani language, literature and women's rights. Gamkusar's critiques of a number of contemporary press organs, together with his reflections on literature, poetry and the true nature of the poet, demonstrate his profound understanding of the depths and subtleties of literature and journalism and confirm him as a personality with a deeply national and popular (people-oriented) stance.

**Keywords:** *literary criticism, literary theory, press, literary language, innovation.*

## GİRİŞ

XX əsrin əvvəlləri tənqidi realizm ədəbi cərəyanının və "Molla Nəsrəddin" ədəbi məktəbinin Naxçıvan ədəbi mühitinin yetirməsi olan nümayəndələrindən biri "Xadimi-millət", "O taylı", "Cüvəllağı", "Sarsaqqulu bəy" imzaları ilə əsərlər qələmə alan Əliqulu Nəcəfov (Qəmküsar)dır. Mollaxanada ərəb-fars dillərini, Şərq və Azərbaycan ədəbiyyatını, dövrün əvəzsiz maarifçi-pedaqoqu Mə-

* AMEA Naxçıvan Bölməsi, e-mail: orujovaaygun82@gmail.com
ORCİD: 0000-0001-7450-2191

həmmədtağı Sidqinin "Məktəbi-tərbiyə"sində dünyəvi elmləri, "Darül-ürfan" ədəbi məclisində Avropa və Rusiya ədəbiyyatının klassiklərinin yaradıcılığını mükəmməl şəkildə mənimsəmişdir. Xəstə atasını müalicə üçün Təbrizə aparan 16 yaşlı gənc Əliqulu İranın mühafizəkar mühiti, dini fanatizmi, mədəni geriliyi ilə bilavasitə yaxından tanış olmuş və sonralar bu mühiti satiralarında bütün çılpaqlığı ilə açıb göstərmiş, ifşa etmişdir. "Müsəlman həyatının elə bir sahəsi yoxdur ki, bu ilhamlı şairin diqqətindən kənarda qalmış olsun. Çoxüzlü almazda olduğu kimi, Qəmküsar poeziyasında da müsəlman ruhanilərinin ədəbsizliyi də, bəy və mülkədarların tüfeyliliyi və zülmü də, demokratiyanın zülmətdə qalması, gücsüzlüyü də, qadınların hüquqsuzluğu da və ümumiyyətlə, türkləri Avropa mədəniyyətindən uzaqda saxlayan hər şey öz əksini tapır" [Şərif, 1919]. Qəmküsar real həyatda da, teatr səhnəsində də, ədəbi-publisistik yaradıcılığında da dırnaqarası din xadimlərinin iç üzünə çox yaxından bələd olduğundan onların əsl düşməni olmuşdur. Onun əsərlərində tənqidi ruh o qədər kəskindir ki, hətta bəzən bu halı satiranın tələblərindən kənara çıxmaq, satira sərhədlərini aşmaq kimi də xarakterizə edirlər.

Ə.Qəmküsar həm satirik şeirlər, dəyənəklər, həm lirik şeirlər, həm də felyeton və məqalələr yazmış, həmçinin aktyor – Şeyx Nəsrullah rolunun mahir ifaçısı kimi, həm də 1913-1914-cü illərdə "Molla Nəsrəddin" jurnalının böyük ədib Cəlil Məmmədquluzadə ilə birlikdə redaktoru kimi çoxşaxəli fəaliyyət göstərmişdir. Mirzə Cəlilin dəvətilə 1912-ci ildə Tiflisə gələn Qəmküsar "jurnalın bütün ağırlıqlarını çiynində daşımış, təqib və təhqirlərə, təkzib və təkfirlərə onunla birlikdə məruz qalmışdır" [Zamanov, 2006, s. 6]. Qəmküsar xalqın mədəni inkişafına və hüquqlarını tanımasına mane olanlara qarşı mümkün ola biləcək ən barışmaz mövqe tutanlardan olmuşdur. Məhz bu səbəbdən də düşmənləri günü-gündən çoxalmış və sonda həyatının və yaradıcılığının ən məhsuldar zamanında – 39 yaşında evinin önündəcə güllələnmiş, başqa sözlə desək, acı həqiqətləri kəskin şəkildə ifadə edən dili amansızcasına susdurulmuşdur. Şairin qətlinin bəzən menşevik, bəzən bolşevik, hətta müsavatçılar tərəfindən əvvəlcədən planlaşdırıldığı barədə ədəbiyyatşünaslıqda müxtəlif fikirlər mövcuddur. Bu fikirləri saf-çürük edən akademik İsa Həbibbəyli professor Əziz Şərifin qəzetlərin birində guya qatı bir cinayətkarın öldürülməsi kimi tamamilə yalan xəbər dərc etməsinə cavab olaraq yazdığı məqaləni və bu işin təsadüf ola biləcəyi versiyasını daha məntiqli hesab edir: "...professor Əziz Şərifin 20 mart 1919-cu ildə "Borba" qəzetində çap etdirdiyi "Qəmküsar" adlı nekroloq xarakterli yazıdan başa düşmək olur ki, Əliqulu Qəmküsar gecə saat on birdə evə qayıdıb giriş qapısını döyərkən qonşuların şübhəsinə tuş gəlir və qorxudan vahimə keçirən qonşu qadınların haykүyünə gələn qaradovoyun dalana açdığı atəşdən qətlə yetirilir. Məqalədəki "həyatımızın pərakəndəliyi ... bir xalq dostunu alıb apardı" fikri də qətlin düşünülmüş, əvvəlcədən planlaşdırılmış hadisə olmadığını göstərir" [Həbibbəyli, 2022]. Bu hadisə zamanında şairin müasirləri tərəfindən də hiddət və qəzəblə qarşılanmış, günahkarın cəzalandırılması tələb olunmuşdur. Mollanəsrəddinçi ədib Ə.Haqverdiyev məlum hadisə və Ə.Qəmküsarın "Molla Nəsrəddin" məcmuəsi üçün dəyəri haqqındakı fikirlərini belə ifadə etmişdir: "Əliqulu Nəcəfzadəyə dəyən güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi. Ona mən "Molla Nəsrəddin" məcmuəsinin ürəyi adı qoymaqda səhv etmirəm və cürətlə də bu sözü deyirəm. Heyf olsun bivəxt əlimizdən gedən rəfiqimizə ki, həmişə qədirşünas dostlarının ürəyində diridir" [Kazımova, 2012, s. 255-256]. Eyni fikirləri böyük ədib Cəlil Məmmədquluzadə də onun haqqında yazdığı iki fərqli məqalələrində - "Əliqulu Nəcəfov" (1924), "Məşədi Sijimqulu Kefsiz" (1927) də ifadə etmişdir. "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı" mövzusunun tədqiqatçısı filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Orucova Cəlil Məmmədquluzadənin ədəbi-tənqidi görüşlərindən bəhs edərkən bu barədə yazır: "Mirzə Cəlilin ən yaxın dostu azadlıq və həqiqət carçısı Qəmküsar haqqındakı məqalələri onun xaincəsinə qətlinin beş və on illiyi münasibətilə yazılmışdır. 1924-cü ildə "Kommunist" qəzetində çap olunmuş "Əliqulu Nəcəfov" adlı məqalə guya qəzetdə yer olmadığı səbəbdən qısa, lakonik, lakin çox mənalı və təsirli yazılmışdır" [Orucova, 2011, s. 123]. Keçmiş günləri, əziz yoldaşları Sabiri və Qəmküsarı yada salıb qəlbinin dərinliyində qəmgin olan böyük ədib millətin halına ürəkdən yanan belə nadir şairlərin

vaxtsız bu dünyadan köçməyinə təəssüf edir: "Təəssüflər edirəm ki, Əliqulu Qəmküsar kimi həqiqi və ləzzətli əhli-qələm və şairimiz bu dünyadan vaxtsız getdi və məcmuəni öz köməyindən məhrum qoydu" [Məmmədquluzadə, 2004, s. 244]. Və ya vəfatının on illiyi münasibətilə yazdığı "Əliqulu Qəmküsar" məqaləsində şairin "Molla Nəsrəddin" də iştirakı, burada dərc olunan mənzum və mənsur əsərləri haqqında ətraflı məlumat verilmişdir. Şairin dillər əzbəri olan "Sinəzən", "Bu qədər ifadələnmə, sənə yoxdu bab, varlı" misralı satiralarından nümunələr gətirərək ümumilikdə Qəmküsar yaradıcılığını yüksək qiymətləndirmişdir: "Molla Nəsrəddin"də iştirak edən şairlər cərgəsində Cüvəllağı yoldaşımız fikir açıqlığı və dini mövhumata qarşı şiddətli tənqid və çıxışları ilə hətta Sabiri də qabaqlamışdı. Nə qədər ki, məcmuəmizin adı söylənir, onun əziz və qiymətdar qələm yoldaşlarının qabaq sırasında əziz yoldaşımız Əliqulu Qəmküsar – Cüvəllağı bəyin adı həmişə "zindəbad" alqışları ilə zikr olunacaqdır" [Məmmədquluzadə, 2004, s. 287-288]. Şairin sağlığında haqqında çox az bəhs olunmuşdur. Bu barədə filologiya üzrə elmlər doktoru Fərman Xəlilov yazır: "Biz Ə.Qəmküsarın müasirlərindən olan C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ə.Nəzmi, S.Mümtaz, Ə.Abid və başqalarının onun yaradıcılığına verdikləri yüksək qiymətlə ancaq 1919-cu ildən, yəni Ə.Qəmküsarın qətl edildiyi ildən etibarən yazdıqları xeyli məqalə və xatirələr vasitəsilə tanış oluruq" [Xəlilov, 2017].

Mollaxanada ərəb-fars dillərini, Şərq və Azərbaycan ədəbiyyatını, dövrün əvəzsiz maarifçi-pedaqoqu Məhəmmədtağı Sidqinin "Məktəbi-tərbiyə"sində dünyəvi elmləri, "Darül-ürfan" ədəbi məclisində Avropa və Rusiya ədəbiyyatının klassiklərinin yaradıcılığını mükəmməl şəkildə mənimsəmişdir. Xəstə atasını müalicə üçün Təbrizə aparan 16 yaşlı gənc Əliqulu İranın mühafizəkar mühiti, dini fanatizmi, mədəni geriliyi ilə bilavasitə yaxından tanış olmuş və sonralar bu mühiti satiralarında bütün çılpaqlığı ilə açıb göstərmiş, ifşa etmişdir. Qəmküsar real həyatda da, teatr səhnəsində də, ədəbi-publisistik yaradıcılığında da dırnaqarası din xadimlərinin iç üzünə çox yaxından bələd olduğundan onların əsl düşməni olmuşdur. Onun əsərlərində tənqidi ruh o qədər kəskindir ki, hətta bəzən bu halı satiranın tələblərindən kənara çıxmaq, satira sərhədlərini aşmaq, bəzən həcvə yaxınlaşmaq kimi də xarakterizə edirlər.

## ƏDƏBİYYATIN TƏNQİDİ

Qəmküsarın satirik şeirlərində "Molla Nəsrəddin" şeir məktəbinin, daha çox M.Ə.Sabir, felyeton və məqalələrində isə C.Məmmədquluzadə ənənələrinin təsiri və davam etdirilməsini müşahidə edirik. Ən fəal mollanəsrəddinçi şair kimi jurnalın və eyniadlı ədəbi məktəbin tənqid hədəflərinə - bunların ən başında ancaq öz şəxsi mənfəəti üçün çalışan yalançı ruhanilərə, ümumən xalqın inkişafına mane olanlara qarşı mübarizə apardığını görürük. Məhz bu səbəbdən bilavasitə "Molla Nəsrəddin" jurnalının redaktoruna, M.Ə.Sabirə, Ə.Nəzmiyə ünvanlanmış, onların əsərlərinə cavab verən satirik şeir və felyetonlar qələmə almışdır. "Dolaşma", "Müxəmməsçilər", jurnalın 1913-cü il 9-cu nömrəsindəki "Ədəbiyyat", "Məcmuəmizin" və s. şeirlər "Molla Nəsrəddin" və ya C.Məmmədquluzadəyə müraciətən yazılmışdır. Sonuncu şeir istisna olmaqla digərləri demək istədiyi fikrin əksini ifadə etməklə və tənqid hədəflərini, onların ikrahdoğuran əməllərini sadalamaqla alınan uğurlu satirik nümunələrdir. Zahirən baş redaktoru məcmuəsində bir az insaflı olmağa, dırnaqarası sahibi-iman olanlara – şeyxlərə, mollalara, elm-ürfan əhli, alim olan qazılara, Qubadakı Hacı babaya, vaizlərə, müftə-müsəlləm yeyib gəzən bəylərə, sahibi-dövlət, yəni varlı, zəngin xanlara, şah və sultanlara dolaşmamağa, onların nöqsanlarından bəhs etməməyə çağıran müəllif, əslində, hətta özü də bu qrup insanların nöqsanlarını xatırlatmış olur. Guya bu şəxslərin yerində kim olursa, Mirzə Cəlilin özü də olsa, kəndliyə, əkinçiyə rəhm eləməz və əziyyət çəkib halal ruzisini qazanmaqdansa, rahat yeyib gəzməyi üstün tutarmış:

Sən də olsan bəy, yeyəsən müft-müsəlləm,
Rəhm eyləməzsən rəncbərə, dehqanə, dolaşma.
...Şeyxin təri, ya çirki şəfa oldusa xalqa,
Gülmə belə ecazə, bu dərmanə dolaşma [Qəmküsar, 2006, s. 17].

Göründüyü kimi, Qəmküsar şeirdə həmçinin İrandakı məşrutə inqilabından, məşrutəçilərin çəkdiyi çətinliklərdən və qəhrəmancasına müqavimətlərindən də bəhs etməyi unutmayır.

Sonuncu şeirdə "Molla Nəsrəddin" jurnalı, onun ali məramı, çətin mübarizəsi, məqsədləri, qətiyyəti, öz yolundan dönməzliyi, sonsuz cəsarəti tərənnüm olunur. Bunun əksinə, köhnəpərəst-lərin, müftə yeyənlər və cib kəsənlərin iç üzlərini açıb göstərdiyinə, xalqa tanıtdığına görə məcmuəyə düşmən kəsildiyi göstərilir. Qəmküsar "Molla Nəsrəddin" jurnalının məna əhli, ariflər üçün "pəndi-pədər", yəni ata nəsihəti, öyüdü, "Əhli-Quranə ədəb qamçısı, … birər moizə" [Qəmküsar, 2006, s. 36] kimi dəyərli olduğunu, bir az da mübaliğə edərək düşmənlərin nə etsələr də, məcmuəyə toxuna bilməyəcəklərini müxtəlif bəndlərin son iki misralarındakı fikirlərlə maraqlı ifadə etmişdir:

Vursalar ombasına min zəki məcmuəmizin,
Haq bilir düşməyəcək bir tükü məcmuəmizin.
…İçsələr qanını yüz nəlbəki məcmuəmizin,
Xaini susduracaq bir təki məcmuəmizin [Qəmküsar, 2006, s. 36].

"Qələm arqadaşım "Kefsiz"ə" mollanəsrəddinçi şair Ə.Nəzmiyə müraciətlə yazılmışdır. Qəmküsar öz həmkarını artıq xalqı oyatmaq, ayıltmaqçün şeir, qəzəl yazmağın başını buraxmağa, mollaları rüsvay etməməyə, bəyi, xanı kəndliyə tay etməməyə çağırır. Çünki dəmiri isti olanda döymək mümkün olduğu halda, bu dəmir çox soyuq olduğundan ya ciddi ya satira yolu ilə yazdıqlarının xalqa təsiri yoxdur, onlar daim şairləri təhqir edir, onları dinsiz, imansız, kafir adlandırırlar:

Belə yazdıq ki, camaat bizə bədxah oldu,
Həmi bizdən, həmi məcmuədən ikrah oldu [Qəmküsar, 2006, s. 46].

"İki ildir vəfat edib Sabir" şeiri isə "Molla Nəsrəddin" şeir məktəbinin ən istedadlı nümayəndəsi, yaradıcılığının ən çiçəklənən bir zamanında amansız xəstəlikdən vəfat edən M.Ə.Sabirin vəfatından sonra xalqın və varlıların şairin ruhunu şad etmək və ailəsinə maddi, mənəvi dəstək olmaqçün edilməyən xidmətlərdən bəhs edir. Bildiyimiz kimi, sağlığında onu müalicə etmək üçün "Molla Nəsrəddin" jurnalı və digər mətbuat orqanları da şairə ianə toplanılması üçün müraciət dərc etmişdi. Lakin buna baxmayaraq, şairin həyatını xilas etmək mümkün olmadığından onun arzusu olan əsərlərini nəşr etməkçün bu vəsaitdən istifadə olunur. Ancaq belə bir əvəzsiz şairin adının əbədiləşdirilməsi, ailəsinə maddi kömək məsələlərində hər hansı bir addım atılmaması şairi hiddətləndirir və kəskin ruhlu bu satiranı yazmağa məcbur edir:

İki ildir vəfat edib Sabir,
Onu millət gözəlcə yad eliyib,
Ruhunu hər cəhətlə şad eliyib,
Qılıb öz qədridanlığın zahir.

Neçə məktəb bina edib adına,
Darülitamü darüləcəzə açıb,
Pulu bol-bol, kürur-kürur saçıb,
Yetişib min yetim-yesir dadına [Qəmküsar, 2006, s. 47].

## Ə.QƏMKÜSAR VƏ SƏİD SƏLMASİ

Professor Cəfər Xəndanın "Səid Səlmasi" (1947) portret-oçerkində də məlumat verdiyi kimi, "Təbriz məşrutə hərəkatında mitinqlərin fəal iştirakçısı və təşkilatçısı, təsis etdiyi Səidiyyə mədrəsəsi şagirdlərini də bu hərəkata cəlb edən və nümayişlərə göndərən, 1909-cu ildə şah qoşunları əleyhinə hücumda ağır yaralanıb vəfat edən" [Xəndan, 1980, s. 201-202] Səid Səlmasinin haqqında ilk məlumat "Tərəqqi" qəzetinin 6 mart 1909-cu il tarixli 50-ci nömrəsində "İran işlərinə dair" rubrikasında "Səid Səlmasi" adlı nekroloqunda verilmişdir. Onun malik olduğu "dörd müstəhsən sifətləri" sadalayan Qəmküsar atəşli bir natiq və güclü və təsirli qələm sahibi, milli və vətənpərvərlik

hissləri çox güclü olan və var-dövlətini millətinin maariflənməsi və inkişafına fəda edən əvəzsiz bir şəxsiyyət kimi xarakterizə edir: "İkincisi, o şəhidin qüvveyi-qələmiyyəsi idi ki, sabiqən "Füyuzat" məcmuəsinin sütunlarında dərc və şahidi-hal ola bilər. Tövzihə ehtiyac yoxdur" [Həşimli, 2013, s. 204]. "Şəhidi-mərhum Səid Səlmasinin tərcümeyi-halı"nı onun dostu Ə.Qəmküsar "Tərəqqi" qəzetinin 1909-cu il tarixli 70-ci nömrəsində vermişdir. Burada onun Dilməqanda anadan olduğunu, Qərbi Avropa, Macarıstan və Asiyanın bir çox yerlərini səyahət etdiyini, inkişaf etmiş millətlərin kəşflərilə, həyat tərzilə yaxından tanış olduğunu, xüsusən Osmanlı ədiblərinin əsərlərindən daha çox təsirləndiyini, Bakı mühitinin onun dünyagörüşündə əsaslı dəyişiklik etdiyini öyrənirik. Xalqını maarifləndirmək məqsədiylə öz maddi vəsaitiylə çox böyük çətinliklə yeni üsullu ibtidai məktəb açdığını, "Şəfəq" adında bir qəzet açmağa müvəffəq olsa da, tezliklə bunun mürtəce qüvvələr tərəfindən qapadıldığını, iki dəfə Təbrizdə sui-qəsdə məruz qaldığını, evinin və "Ümidi-tərəqqi" adlı mətbəəsinin qarət edildiyini qeyd edən Qəmküsar azadlıq uğrunda mübarizəsində onun əzmkarlığını və dönməzliyini də xüsusi nəzərə çatdırır. Qəmküsar onun ictimai fəaliyyətini, yüksək əməllərini yad edir və cavan öldüyü üçün bu əməllərə yetmədiyi üçün kədərlənir. O yazır: "Ey təzə açılmış gül qönçəsi! Nə tez xəzanə döndün! Amma ruhun inciməsin. Sənin pak qanından həqiqi mücahidlər əmələ gəlib, Vətən düşmənlərindən intiqam alacaqlar!" [Həşimli, 2013, s. 213]. Səid Səlmasi Əliqulu Qəmküsarla məktublaşır və məsləhətləşirdi. Onun 1909-cu il yanvar ayında yazdığı məktubu "Yeni füyuzat" jurnalının 1911-ci ilinin 15 fevral tarixli 6-cı nömrəsində dərc etdirmişdir. "Səid Səlmasi kimdir?" başlığı altında nəşr etdirdiyi yazıdan sonra Ə.Qəmküsar ondan aldığı məktubu eynilə dərc etdirir. "İştə o mücahidi-həqiqinin ömrünün son günlərində Xoydan mənə yazdığı bir məktubu möhtərəm "Füyuzat" qarelərinə bir töhfə qəbilindən olaraq eynən dərc edirəm ki, o vücudi-mübarəkin necə səhih bir məslək və ali bir fikir sahibi olduğu açıqdan-açığa kəşf olunsun" [Həşimli, 2013, s. 186-189]. Ə.Qəmküsarın "Yeni füyuzat" jurnalı 11 yanvar 1911-ci il tarixli 2-ci nömrəsində dərc olunmuş "Şəhidi-hürriyyət" şeirində S.Səlmasinin ölümü dərin hüznlə yad edilmişdir:

Ah, ey nöcavan ki, qəlbində
daima bəslədin həvayi-vətən,
Vətən uğrunda, millət eşqində
Laləgun oldu qanlarınla kəfən [Qəmküsar, 2006, s. 86].

## Ə.QƏMKÜSAR VƏ M.M.ÇAKƏR

Şairin müasiri olan naxçıvanlı həm şairlik, həm də mollalıq edən Molla Mahmud Çakərin (1871-1933) adı və əməlləri – "şeirlərindəki epiqonçuluq, fəaliyyətindəki mövhumatçılıq" [Cəlil Məmmədquluzadə ensiklopediyası, 2008] ümumən, "Molla Nəsrəddin" jurnalının, daha çox da Qəmküsarın əsərlərində çox tez-tez tənqid olunmuş, aktyorluq işi isə təqdir edilmişdir. 1909-1911-ci illərdə "Molla Nəsrəddin" jurnalında dərc olunan "Sinəzən", "Könlüm", "Millətinin halı pərişan ola", "Ələ düşməz" və s. şeirlərində "Çakərin mürtəce dini fəaliyyətini, mərsiyəxanlıqdan uzağa getməyən şairliyini və bəzi yaramaz əməllərini tənqid və ifşa hədəfinə çevirmişdir" [Xəlilov, 2017b]. Filologiya elmləri doktoru Fərman Xəlilovun araşdırmasından məlum olur ki, "hətta mollanəsrəddinçilərlə əməlli-başlı yola getməyən yazıçı-jurnalist Haşım bəy Vəzirov da "İttifaq" qəzetinin 19 mart 1909-cu il tarixli 62-ci nömrəsində dərc etdirdiyi "Birinci qurd Naxçıvanda" adlı məqaləsində onların mövqeyindən çıxış edərək Çakəri qəzet və jurnalları satıb pulunu mənimsədiyi üçün kəskin şəkildə ifşa etmişdir" [Xəlilov, 2017b]. Çakər Qəmküsarın vəfatından sonra onun sağ olmasını arzulamış və mollalığın daşını atmaqda Qəmküsarın ona çox təsiri olduğunu səmimi etiraf etmişdir: "Kaş indi Əliqulu Qəmküsar da sağ olaydı, o, Şeyx Nəsrullah, mən isə Şeyx Əhməd rolunda oynayaydıq. Axı mollalığın daşını atmaqda Qəmküsarın mənə çox təsiri olub" [Tarverdiyev, 1970]. Qəmküsar 1910-cu ildə dahi Füzulinin "Tutuşdu qəm oduna şad gördüyün könlüm" misrası ilə baş-

layan qəzəlindən istifadə edərək xalqı aldadan, ikiüzlü, riyakar şair və ruhaniləri kəskin tənqid edən satira yaratmışdır:

Mənim ey naxçıvanlı şairə heyran olan könlüm,
Yazan latayilatə matü-sərgərdan olan könlüm.
Həya qılma, açıq söylə, cahanda sən görübsənmi
Həmi şair, həmi molla, həmi şeytan olan könlüm? [Qəmküsar, 2006, s. 19].

Şeirin digər beytlərində onun dünya malına aludəçiliyi, bir yol, məram tuta bilməməsi, prinsipsizliyi, başqa qəlibə, şəklə düşmədə, danosbazlıqda hər kəsi heyrətdə qoymağı, bir sıra mətbuat orqanlarının pullarını mənimsəməyi, danışığının, nitqinin boş, mənasız, uydurma sözlərdən ibarət olduğu aydın olur. Digər şeirlərində isə onun avam insanları aldadıb açıq-aydın cənnət vədləri verməyi, hər ildə təzə bir arvad almağı, haram pullar alıb qarnını doldurmağı və s. tənqid olunur:

Çakər ola mərsiyəxani-səhih,
Qövlü qələt, feili tamamən qəbih.
Vədeyi-cənnət verə xalqə sərih,
Dinmə, danışma, bu da, yahu, keçər [Qəmküsar, 2006, s. 23].

## MƏTBUAT TƏNQİDİ

Ə.Qəmküsarın yaradıcılığında və jurnalistlik fəaliyyətində diqqəti cəlb edən məqamlardan biri də bir sıra mətbuat orqanları və onların əsas müəllifləri, mühərrir və redaktorları haqqın da yazılmış şeir və felyetonlardır. “Şəlalə” ədəd 3” satirası, bir sıra dəyənəklərində, “Qatış-bulaş” felyetonunda Qəmküsarın Azərbaycan ədəbi dilinin saflığının qorunması uğrundakı mübarizəsi bədii ifadəsini tapmışdır. O, İsa bəy Aşurbəylinin dəvətilə Azərbaycana gələn Osmanlı mühərriri Xalid Xürrəm Səbribəyzadə və “Şəlalə” jurnalının Azərbaycan dili, ədəbiyyatı və qadınların hüquqlarıyla bağlı mürtəce mövqeyini kəskin tənqid etmişdir:

Səbribəyzadə, bizi atma, amandır, getmə!..
Millətin halı bugün xeyli yamandır, getmə!..
Yaxşı təfsir eylə öz rəyin ilə Quranı,
Çadraya, çarşafa bük, dustaq elə nisvanı,
Qoyma getsin qabağa milləti, qaytar anı,
İndi Qafqazda böyük bir həyəcandır, getmə! [Qəmküsar, 2006, s. 54].

Qəmküsarın bu satirasındakı “Sən ki, getdin, ədəbiyyat bütün öldü demək”, “Kaş ola beş dənə Qafqazda sənin tək şair”, “Gündə yaz, həftədə nəşr et ədəbiyyati-ətiq” kimi misralarda çox güclü sarkazm vardır. Son bənddə isə şair hətta bu sözləri zarafatla yazmadığını və ona həqiqətdə məftun olduğunu və onsuz məcmuənin heç bir dəyəri qalmadığını əlavə edir.

“Kəlniyyət” məcmuəsinin ruhuna” şeirində 1912-ci ilin may ayından 1913-cü ilin fevral ayına qədər Bakıda “Molla Nəsrəddin” jurnalının təsiri ilə cəmi 37 nömrəsi nəşr olunan məcmuənin bağlanmasından doğan kədərini ifadə edir. Jurnalın naşiri Seyid Hüseyn, redaktoru isə hacı İbrahim Qasımov olmuşdur. Həftədə iki dəfə nəşr olunan satirik jurnalda mollanəsrəddinçilərdən Əli Nəzmi “Kefsiz”, Əli Məhzun İrəvani isə “Yetim cücə” gizli imzalarıyla çıxış etmişlər. Jurnalda müasir dövrün bir sıra nöqsanları, xalqın qanını soran burjuaziya, dırnaqarası ruhanilərin riyakarlığı tənqid olunmuşdu. Qəmküsar şeirdə satirik jurnalın xalqın maariflənməsi, haqqını tələb etməsi, başqa millətlərlə dostlaşması, ünsiyyət yaratması və əlaqələri genişləndirməsi, xalqı mürtəce adətlərdən çəkindirməyə çalışması və s. xidmətlərini sadalamaqla zahirən bunları etməkdə onu günahlandırır. Lakin ayıq oxucu əslində, bütün bunların xalqın inkişafı naminə atılmış addımlar olduğunu müəyyənləşdirə bilir:

Yetdin yetənə, yetməyənə bir təpik atdın,
Vicdanını, imanını bircə pula satdın,

Şeyxi, qazını, xanı, bəyi bir-birə qatdın,
İcma eləyib qıldılar axır sənə nifrət [Qəmküsar, 2006, s. 40].

## NƏTİCƏ

Yuxarıda verilmiş nümunələrdən də aydın olduğu kimi, Qəmküsarın dövrünün bir sıra mətbuat orqanlarının tənqidi, ədəbiyyat, şeir və əsl şair haqqındakı mülahizələri onun ədəbiyyatın, mətbuatın dərinliklərinə, incəliklərinə bələd olduğunu və son dərəcə milli, xəlqi mövqeyə malik və vətənpərvər bir şəxsiyyət olduğunu təsdiqləyir. Onun mərsiyə, epiqon şeir haqqındakı ədəbi-nəzəri, ədəbi-tənqidi, mətbuat tənqidi, ədəbi dilin alınma sözlərdən təmizlənməsi, saflığı uğrunda mübarizə istiqamətində yazılmış satirik və ciddi şeirləri, dəyənəkləri, felyeton və digər publisistik əsərləri XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı, mətbuatı, teatrı, jurnalistikasını araşdıranlar üçün dəyərli mənbələrdir. Bu əsərlər mollanəsrəddinçilərlə dövrün bir sıra məşhur şəxsiyyətlərinin – redaktor, mühərrirlərin, hətta bəzən mollanəsrəddinçi ədiblərlə də münasibətlərini aydınlaşdırmaq üçün müvafiq dərəcədə mənbə rolunu oynayır.

## ƏDƏBİYYAT


*Cəlil Məmmədquluzadə ensiklopediyası*. (2008). https://calilbook.musigi-dunya.az/ch/chaker_molla.html, Çakər Molla Mahmud. Şərq-Qərb.

Həbibbəyli, İ.Ə. (2022, 02 aprel). *Əliqulu Qəmküsar necə öldürülüb?* https://525.az/news/190020-eliqulu-qemkusar-nece-oldurulub-isa-hebibbeyli-yazir

Həşimli, H.M. (2013). *Səid Səlmasi.* Elm və təhsil.

Xəndan, C. (1980). *Ədəbiyyatımızın dünəni və bugünü* (Tərtib edəni Rəfiq Zəka). Yazıçı.

Xəlilov, F.Y. (2017, 20 iyun). *Görkəmli mollanəsrəddinçi Əliqulu Qəmküsar və müasirləri.* https://525.az/news/81542-gorkemli-mollanesreddinci-eliqulu-qemkusar-ve-muasirleri

Xəlilov, F.Y. (2017b, 21 iyun). *Görkəmli mollanəsrəddinçi Əliqulu Qəmküsar və müasirləri.* https://525.az/news/81631-gorkemli-mollanesreddinci-eliqulu-qemkusar-ve-muasirleri

Kazımova, F.R. (2012). *Azərbaycan ədəbiyyatının "Cüvəllağı"sı.* Mütərcim.

Qəmküsar, Ə. (2006). *Seçilmiş əsərləri* (Tərtib edəni İslam Ağayev). Şərq-Qərb.

Məmmədquluzadə, C. (2004). *Əsərləri.* 4 cilddə (4-cü cild). Öndər.

Orucova, A.Ə. (2011). "Molla Nəsrəddin" jurnalının düşünən beyni və vuran ürəyi. *Əliqulu Qəmküsar: taleyi və sənəti* (Tərtib edəni akademik İsa Həbibbəyli). Bakı: Elm və təhsil, s. 122-131.

Şərif, Ə. (1919). Əliqulu Qəmküsar. "Borba", 20 mart, 62.

Tarverdiyev, M. (1970). *Minbərdən səhnəyə.* "Ədəbiyyat və incəsənət" qəz., 21 fevral.

Zamanov, A. (2006). *Əliqulu Qəmküsar.* Seçilmiş əsərlərinə Ön söz. Şərq-Qərb.



*(Akademik İsa Həbibbəyli tərəfindən çapa təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 12.01.2026**
**Son variant 11.02.2026**